# AZƏRBAYCAN

Ölkə Konstitusiaysına görə bütün məzhəblərə mənsub olan insanlar heç bir məhdudiyyət qoyulmadan istədikləri dini seçib ona etiqad və qulluq edə bilərlər. Bununla belə qeydiyyatla bağlı üzücü qaydalar və ayrıseçkiliklə müşaiyət edilən təzyiqlər qanunvericiliyin tətbiq olunmasında bəzi maneələr yaratmışdır.

Bu hesabatın əhatə etdiyi vaxt dövründə dini azadlıq statusuna dair hər hansı bir dəyişiklik baş verməmişdir. Bəzi dini qruplar qeydiyyatdan keçmə prosesində gecikdirmələrin və qeydiyyatdan keçmək xahişlərinin rədd edilməsi hallarının mövcud olması barədə məlumat vermişdir. Əvvəldə olduğu kimi bəzi dini qrupların qarşısında dini ədəbiyyatın ölkəyə gətirilməsinə qarşı müəyyən məhdudiyyətlərin qoyulması davam etmişdir. Dini qrupların əksəriyyəti hökumət tərəfindən maneələrə və təzyiqlərə rast gəlməmişdir bununla belə yerli hakimiyyət orqanları vaxtaşırı olaraq dini mərasimləri nəzarətdə saxlamış və müəyyən vaxtlarda qeyri-ənənəvi dini qruplara qarşı sıxışdırmalara yol vermiş və onların bəzi üzvlərini tutub saxlamışdır.

Dini etiqada görə ictimai qınaq və ayrıseçkilik halları haqqında ara-sıra məlumatlar verilmişdir. Qeyri-islam dinləri qəbul etmiş müsəlmanlara qarşı qərəzli münasibət və eləcə də başqa dinləri təbliğ edən, xüsusilə Yevangelik Xristian və digər missioner qruplara qarşı müəyyən qədər küdurətli münasibət mövcud olmuşdur.

İnsan hüquqlarının inkişafı üzrə öz siyasətinin bir hissəsi kimi ABŞ Hökuməti dini azadlıqlar məsələlərini ölkə Hökuməti ilə müzakirə edir. ABŞ Səfirliyinin əməkdaşları qeydiyyat prosesinə və qeyri-ənənəvi dini qruplara qarşı rəsmi münasibətə dair narahatçılıqlarını çatdırmış və dini ədəbiyyatla bağlı mövcud olan senzuraya dair etirazlarını bildirmişdilər.

## Bölüm I.  Dini Demoqrafiya

Rəsmi rəqəmlərə əsasən ölkənin ərazisi 33,774 kvadrat mil, əhalisinin sayı isə təqribən 8,5 milyon nəfər təşkil edir. Müxtəlif dinlərə mənsubiyyətə dair inandırıcı və etibarlı statisitk rəqəmlər yoxdur; lakin rəsmi rəqəmlərə əsasən əhalinin 96 faizi Müsəlmandır. Əhalinin qalan hissəsi isə Rus Pravoslav, Erməni Ənənəvi, Yəhudi dini icmalarına və və ümumiyyətlə heç bir dinə mənsub olmayan insanlardan ibarətdir. Müsəlman əksəriyyəti arasında dini ibadət nisbətən aşağıdır və müsəlmançılıq dindən daha çox mədəni və etnik xarakter daçıyır. Dini Qurumlarla iş üzrə Dovlət Komitəsinin (DQDK) məlumatına əsasən Müsəlmanların təxmini olaraq 65 faizi Şiyə 35 faizi isə Sünnidir; onlar arasında müxtəlifliklər ənənəvi olaraq kəskin şəkildə nəzərə çarpmır.

Ölkə Xristianlarının böyük əksəriyyəti Pravoslavlardır. Onlarında müsəlmanlar kimi dini mənşəyi daha çox mədəni və etnik xarakter daşıyır. Xristianlar əsasən Bakıda və bir sıra digər şəhərlərdə məskunlaşmışdır. Ölkədə yaşayan təxminən 20,000 Yəhudinin böyük əksəriyyəti  Bakıda məskunlaşmışdır. Kiçik icmalar Qubada və digər ərazilərdə də mövcuddur.

Dörd qrup (Şiyələr, Sünnilər, Pravoslav Ruslar və Yəhudilər) ənənəvi dini qrup sayılır. Bundan başqa ölkədə artıq 100 ildən çoxdur ki, Lüteranlar, Katoliklər, Baptistlər, Molokanlar (Rus Pravoslavlarına aid olan Köhnə Dinə İnananlar), Yeddinci Günün Adventistləri və Bəhailərin kiçik icmaları var.

1991-ci ildə müstəqillik qazanılandan sonra hökümət tərəfindən əcnəbi qeyri-ənənəvi din qrupları sayılan “Vəhabi” Müsəlmanlar, Yevangelik və Müqəddəs Üçlük Xristianlar, İeqova Şahidləri və Krişnaitlər əz fəaliyyətlərinə başlamışdır.

Bakıda nəzərəçarpacaq sayda xarici xristian icmaları sayı mövcuddur.

## Bölüm II.  Dini Etiqad Azadlığının Vəziyyəti

### Hüquqi/Siyasi Çərçivə

Konstitusiya bütün dinlərə mənsub olan insanlara heç bir məhdudiyyət olmadan öz dinlərini seçmək və ona etiqad etmək imkanı verir. Qanun bu hüququn həm hökumət həm də fərdi şəxslər tərəfindən pozulmasının qarşısını alır, lakin qeydiyyatla bağlı üzücü qaydalar və ayrıseçkiliklə müşaiyət edilən təzyiqlər qanunvericiliyin tətbiq olunmasında bəzi maneələr yaratmışdır (bax Məhdudiyyətlər). Konstitusiyaya əsasən, hər bir şəxsin (ateizm də daxil olmaqla) öz din mənsubiyyətini seçmək və dəyişmək, seçdiyi dini qrupa qoşulmaq və ya onu yaratmaq, öz dininə qulluq və etiqad etmək hüququ var. Dini Etiqad Azadlığı haqqında Qanuna əsasən, hökumətin hər hansı bir şəxsin və ya qrupun dini fəaliyyətinə müdaxilə etməsi aşkar şəkildə qadağan olunur. Lakin həmin qanun bəzi istisnaları da özündə əks etdirir, məsələn dini qrupun fəaliyyətinin “ictimai qaydanı və sabitliyi” təhlükəyə məruz qoyduğu hal həmin istisnalar sırasındadır.

Qanunvericilikdə bir sıra müddəalar hökumətə dini təşkilatların fəaliyyətini tənzimləmək üçün imkan yaradır. Bura Dini Etiqad Azadlığı haqqında Qanununun dini qurumların (məzhəblərin fərdi konqreqasiyaları da daxil olmaqla) hökumət tərəfindən qeydiyyata alınması tələbi də daxildir. Qeydiyyatdan keçmək dini quruma bank hesabı saxlamaq, əmlak icarəyə götürmək və ümumilikdə hüquqi şəxs kimi fəaliyyət göstərmək imkanını verir.

Dini qurumlar DQDK-də qeydiyyatdan keçməlidir. DQDK-nın qeydiyyat məsələlərinə, dini ədəbiyyatın nəşri, ixrac edilməsi və paylanması üzərində nəzarətə və qanunu pozan dini qurumların fəaliyyətinin dayandırılmasına dair geniş səlahiyyətləri var. Qeydiyyatdan keçməsinə imtina edilən dini qurumlara məhkəmələrə müraciət etməyə icazə verilir.

DQDK – nın məlumatına əsasən, hesabat dövründə 106 yeni dini qrup qeydiyyatdan keçmiş və heç bir müraciətə rədd cavabı verilməmişdir. DQDK, ümumilikdə, ölkə üzrə 502 qeydiyyatdan keçmiş dini icmanın olması barədə xəbər vermişdir.

Qeydiyyatdan keçmiş müsəlman dini təşkilatları, Sovet dövründə mövcud olan Muftiliyin bənzəri olan, Qafqaz Müsəlmanları Ruhani İdarəsinə (QMRİ) tabedir ki, o Müsəlman ruhanilərini məscidlərə təyin edir, xütbələrə nəzarət edir və Həcc ziyarəti üçün Məkkəyə zəvvarların səyahətini təşkil edir. DQDK-ə qeydiyyatdan keçmək istəyən müsəlman dini qurumlar QMRİ-dən təsdiq məktubunu təqdim etməlidirlər.

Dini Etiqad Azadlığı haqqında qanuna əsasən siyasi partiyalar dini fəaliyyətlə məşğul ola bilməzlər və eyni zamanda ruhani liderlər dövlət vəzifələrini tuta bilməzlər. Dini vasitələr siyasi məqsədlər üçün istifadə edilə bilməz.

Dinin tədrisi dövlət məktəblərində icbari deyil və orta məktəblərdə din üzrə hər hansı bir tədris proqramı yoxdur. Tələbələr ali təhsil məktəblərində dini kurslar keçə bilərlər.

## Dini Azadlıqlar üzrə Məhdudiyyətlər

Bəzi dini azadlıqlar Hökumət tərəfindən məhdudlaşdırılmışdır. Qeydiyyata alınma prosesi müəyyən dərəcədə üzücü olmuş və bəzi qruplar yeddi mərhələdən ibarət olan qeydiyyat üçün müraciət prosesinin məhdudlaşdırıcı xarakterə malik olmasını qeyd edirlər. Qeydiyyatdan keçməmiş qurumlar qeyri-qanuni olmaqda günahlandırılır, onlar yerli icra orqanları tərəfindən təzyiqlərə məruz qalır. Nəticə etbarilə həmin qurumların fəaliyyət göstərməsi çətin və müəyyən hallarda mümkünsüz olmuşdur.

Hesabat dövründə bəzi dini qruplar məlumat vermişdir ki, DQDK müəyyən hallarda müraciətlərin qeydiyyatı üçün tələb olunan vaxt çərçivəsinə riayət etməkdə çətinlik çəkir.

Digər qruplar bildirmişdir ki, DQDK-nin məmurları qeyri-ənənəvi dini icmalara qarşı ayrı-seçkilik edir və onlar üçün müraciət prosesini müşkülləşdirir.

Bəzi müsəlman icmalarının nümayəndələri bildirmişdir ki, DQİDK-nin qeydiyyat üçün müraciətə baxmasından əvvəl QMRİ qeydiyyatı təsdiq etməlidir və bunun müqabilində qeydiyyat prosesi çətinləşmiş və onlar ayrı-seçkiliklə qarşılaşmışdır. DQDK bir sıra Protestant Xristian dini qruplarının qeydiyyatını ləngitməkdə və ya onların qeydiyyata dair müraciətlərinə rədd cavabı verməkdə davam etmişdir. Bir sıra xristian icmalarının sözlərinə görə DQDK ayrı-seçkilik tətbiq edərək qeydiyyat prosesini çətin və mümkünsüz etmişdir. Eyni zamanda bəzi xristian dini qrupları bildirmişdir ki, onlar qeydiyyata dair rədd cavabı alandan sonra məhkəmələrə müraciət etdiyi təqdirdə yerli hakimlər xristian icmalarına qarşı qərəzli mövqe tutmuş və bu da ədalətli prosesin aparılmasına mane olmuşdur.

Rəsmilər ümumilikdə əcnəbi xristianlara azad olaraq Bakıda ibadət etməyə imkan yaratmışdır lakin azərbaycanlılardan ibarət xristian icmaları maneələrlə üzləşmişdir. Əliabaddakı (kilsə artıq 15 ildir ki qeydiyyatdan keçməyə çalışır) və Neftçaladakı baptist kilsələrinin qeydiyyat üçün müraciətinə rədd cavabı verilmişdir və Əliabad notariusu icmanın qeydiyyat sənədlərinə baxmaqdan imtina etmişdir. Kafedral Tərif Kilsəsi öz GƏncə və Sumqayıtdakı icmalarını qeydiyyatdan keçirməkdə çətinliklərlə üzləşmişdir. Rədd cavabına səbəb kimi müraciət formasında buraxılmış texniki səhvlər və bəzi sənədlərin çatışmaması göstərilmişdir. İlahi Yığıncaq İcması da öz Bakıdakı üzvləri üçün qeydiyyat almaq prosesi zamanı uzun sürən çətinliklərə rast gəlmişdir.

Bəzi dini Müsəlman qrupları, İeqova Şahidləri və yevangelik Xristian icmaları da daxil olmaqla bir sıra qeydiyyatdan keçməmiş dini qruplar fəaliyyətlərini davam etdirmişdir.Eyni zamanda polis müntəzəm olaraq bəzi qeydiyyatdan keçməmiş qrupların dini ibadət mərasimlərinə müdaxilə etmiş və onlara hədə-qorxu gəlmişdir. Yerli hüquq-mühafizə orqanları dini ibadət mərasimlərini vaxtaşırı nəzarətdə saxlamış və məlumatlara əsasən bəzi fərdi xristian və müsəlmanların üzərində axtarış aparmışdır. Yerli müşahidəçilərin sözlərinə görə hakimiyyət orqanları bəzi məscidlərdə müntəzəm baxışlar və yoxlamalar keçirmişdir.

2007-ci ilin dekabr ayında yerli hakimiyyət orqanları şimal-qərb rayonu olan Zaqatalada müsəlmanları namaza səsləyən azan səsinin verilməsinə qadağa qoymuşdur və bu da dini azadlıq müdafiəçilərinin etirazına səbəb olmuşdur. Bu qərar səsgücləndiricilər vasitəsilə məscidlərin azan verilməsinə ölkə üzrə qoyulmuş qadağadan sonra verilmiş qərar idi, lakin Hökumət bir neçə gündən sonra qadağaya dair öz qərarını dəyişdirdi.

Cümə məscidi bağlı olaraq qalmış və hesabat dovrünün axırına məscidin imamına hələ də xarici ölkələrə səfər etmək icazəsi verilməmişdir.

Dini Etiqad Azadlığı haqqında qanuna əsasən vətəndaşlar öz dinlərini digərlərilə azad şəkildə bölüşə bilərlər lakin təcrübədə dinin yayılması üzrə fəaliyyət çox vaxt məhdudlaşdırılmışdır. Qanun açıq şəkildə bəyan edir ki, əcnəbilərə hansısa bir dinin yayılması ilə məşğul olmaq qadağandır və Hökumət bu müddəaya qətiyyətlə əməl edir. 2007-ci ilin iyul ayında Xaçmaz rayonunun hakimiyyət orqanları din yayılması üzrə qanunsuz fəaliyyətdə iki İeqova Şahidini günahlandıraraq rayon ərazisindən çıxarmışdır. İslam missioner qruplarının (xüsusilə iranlılar və sünni sələfilər) ölkədəki fəaliyyəti Hökuməti narahat etmiş və o həmin qrupların fəaliyyətlərini məhdudlaşdırmışdır.

Bəzi müsəlmanlar şikayət etmişdir ki, DQDK guya "Vəhabi" terminini əsassız olaraq mömin müsəlmanlara ləkə atmaq üçün istifadə etmişdir. Yerli Protestant Xristianlar iddia etmişdir ki, DQDK-nin sədri Orucov onlara hörmətsiz yanaşmış və onların təşkilatlarını "sekta" adlandırmışdır.

Qanun DQDK-nın icazəsi olduğu təqdirdə dini ədəbiyyatın hazırlanması və yayılmasına məhdudiyyət qoymur. Bununla belə, səlahiyyətli rəsmilər dini ədəbiyyatın idxalına və yayılmasına seçim əsasında məhdudiyyətlər qoymuşdur. Dini ədəbiyyatın idxalı üçün icazənin alınması yorucu proses olaraq qalır və həm Islam həm də Xristian qrupları bu barədə öz şikayətlərini bildirmişdir. Hesabat dövründə, ölkənin bir neşə ərazisində radikal islam ədəbiyyatının polis tərəfindən müsadirə edilməsi halları barədə məlumatlar daxil olmuşdur. Qeyd etmək lazımdır ki, DQDK bəzi dini ədəbiyyatın idxalını asanlaşdırmışdır və bu da prosesin gedişatını müəyyən dərəcədə mükəmməlləşdirmişdir, baxmayaraq ki bu sahədə məmurların şəxsi fikri aparıcı rol oynayır.

Dini təhsil ilə bağlı xaricə getmək məsələləri Hökümət tərəfindən nizamlanır. Xaricə dini təhsil almaq üçün getmək istəyən şəxslər DQDK-dən və Təhsil Nazirliyindən icazə almalıdır.

Səlahiyyətli orqanlar müsəlmanlara pasport və digər rəsmi sənədlər üçün örtük başla fotoşəkil çəkdirməyə imkan yaratmamışdır. Qanuna əsasən təhsil və digər dövlət müəssisələrində şəxslərə baş örtüyündən istifadə etmək qadağan edilmir. Lakin təcrübədə səlahiyyətli orqanlar universitet rəhbərlərinin qarşısında mədudiyyətlər qoymuşdur ki, onlar baş örtüyündən istifadə edən qadınlara təzyiq göstərsinlər. 2007-ci ilin sentyabr ayında Azərbaycan Pedaqoji İnstitutunun rektoru tələbələrə baş örtüyü ilə məşğələ otaqlarına daxil olmağı qadağan etmişdir. İlkin

olaraq qadın tələbələr bu qadağaya riayət etməkdən boyun qaçırdılar lakin həmin ay bir qədər sonra rektor onları baş örtüyü taxmamağa məcbur etdi.

**Dini Azadlığın Pozulması**

Bəzi rəsmilər tərəfindən dini azadlığın pozulması ara-sıra baş verməkdə davam edir. Bir çox hallarda bu pozulmalar sələfilik, yevangelik xristianlığı və digər qeyri-ənənəvi dinləri qəbul edən etnik azərbaycanlılara qarşı yaranan qərəzli münasibətdə özünü büruzə verir.

2008-ci ilin iyun ayında polis Əliabad kəndində pastor Həmid Şabanovu qeyri-qanuni silah saxlamaqda günahlandıraraq həbs etmişdir. Yerli baptist icmasının üzvləri bildirmişdir ki, polis silahı Şabanovun evinə əvvəlcədən atmışdır. 2008-ci ilin mart ayında həmin icmanın digər pastoru Zaur Balayev prezidentin geniş əfv fərmanı əsasında azadlığa buraxılmışdır. 2007-ci ilin iyul ayında dini ibadət zamanı baş vermiş polis reydi zamanı hüquq-mühafizə orqanlarının əməkdaşlarına müqavimət göstərməkdə günahlandırılmış Balayevə iki il həbs cəzası verilmişdir. Yerli baptistlər iddia etmişdir ki, Balayev polisə müqavimət göstərməmişdir, onu hökumət dini etiqadına görə həbs etmişdir.

2008-ci ilin iyun ayında İeqova Şahidlərinin Bakının kənar ərazilərində yerləşən şəxsi mənzillərdə keçirilən iki dini mərasiminə polis müdaxilə etmişdir. Hər iki halda polis iştirakçıların bəzilərini bir neçə saatlığa tutub saxlamış sonra heç bir ittiham irəli sürmədən azad buraxmışdır.

2008-ci ilin yanvar ayında Bərdə rayonunun polisi bəzi İeqova Şahidlərini bir neçə saatlığa tutub saxlamış və dini ədəbiyyatı müsadirə etmişdir. DQDK-nın məlumatına əsasən bu dini icma yalnız Bakı şəhərində fəaliyyət göstərmək üçün qeydiyyatdan keçirilmişdir.

2007-ci ilin dekabr ayında polis şəxsi mənzildə keçirilən və 20 nəfər Yeddinci Günün Adventistlərinin iştirak etdiyi dini ibadət mərasiminə müdaxilə etmiş, 8 nəfəri həbs etmiş və bir neçə saat saxlamışdır. Polis həmin şəxsləri qanunsuz toplaşmaqda ittiham etmişdir.

2007-ci ilin oktyabr ayında, məhkəmə dini baxışlarına görə hərbi xidmətdən imtina edən İeqova Şahidi Samir Hüseynovu 10 ay müddətinə azadlıqdan məhrum etmişdir. 2008-ci ilin may ayında Hüseynovun barəsində çıxarılmış hökmü Apelyasiya Məhkəməsi qüvvədə saxlamışdır lakin elə həmin ay Hüseynov azadlığa buraxılmışdır. Yerli hüquq müdafiəçiləri hökuməti alternativ hərbi xidmət sistemini yaratmadığına görə tənqid etmişdir. Ieqova Şahidləri bildirmişdir ki,

İnsan Hüquqları üzrə Avropa Konvensiyasına qoşulan dövlət alternativ hərbi xidməti sistemini tətbiq etməyə borcludur. Hökumət rəsmiləri məlumatlara əsasən hərbi xidmətə dair bu cür mövqeni tənqid etmiş və Dağlıq Qarabağ münaqişəsi həll edilmədiyi bir dövrdə bu yanaşmanı "satqınçılıq" və "ictimaiyyətin mənəviyyatını pozan" kimi qələmə vermişdir.

2007-ci ilin sentyabrında polis Sumqayıtda şəxsi evdə keçirilən İeqova Şahidlərinin dini mərasiminə müdaxilə etmiş və iştirakçıların birini qısa müddətə tutub saxlamışdır.

2007-ci ilin ikinci yarısında Hökumət bir sıra islamçılıq fəaliyyətləri üzərində nəzarəti gücləndirmişdir. Məlumatlara əsasən bu özünü dini proqramları efirə verməməsi üçün televiziya kanallarına göstərilən təzyiqlərdə, metro stansiyalarında dini ədəbiyyatın satışına qadağa qoyulmasında və tədris proqramının yoxlanılması məqsədilə 19 mədrəsənin bağlanılmasında özünü büruzə vermişdir. Hesabat dövründə bir sıra məlumatlara əsasən rəsmi orqanlar təxmin edilən islamçı radikalları həbs etmiş, onların saqqallarını qırxmış, silah və qadağan edilmiş islam ədəbiyyatını müsadirə etmişdir. Yerli şərhçilər məlumat vermişdir ki, sələfilər xüsusilə şimal rayonları olan Zaqatala, Quba və Xaçmazda fəal olmuşdur. Onlar tənqidi olaraq bildirmişdir ki, hökumət çox vaxt ekstremist və dinə itaət edən müsəlmanlar arasında fərq qoymağı bacarmır.

### Güclə Dinini dəyişməyə Məcbur Etmə

Birləşmiş Ştatlardan oğurlanmış və ya qeyri-qanuni olaraq çıxarılmış azyaşlı ABŞ vətəndaşları daxil olmaqla ğüclə dini dəyişməyə məcbur etmə və ya belə vətəndaşların yenidən ABŞ-a qayıtmasına icazə verməkdən imtina etmə barədə heç bir məlumat verilməmişdir.

### Dini Azadlıqlara hörmət edilməsi sahəsində vəziyyətin yaxşılaşması

2008-ci ilin mart ayında Katolik kilsəsinin arxiyepiskopu və bir sıra dövlət rəsmiləri Bakıda yeni Katolik kilsənin açılışında iştirak etmişdir. Keçmiş prezident Heydər Əliyev kilsə üçün Vatikana torpağı keçmiş Roma Papası İoann Pavel II ölkəyə 2002-ci ildə etdiyi səfəri zamanı ayırmışdır.

Ölkədəki bəzi dini qruplar onların azad şəkildə fəaliyyət göstərmələri üçün vəziyyətin yaxşılaşması barədə də xəbər vermişdir.

**Bölüm III. İctimai Münasibətlər və Ayrıseçkilik**

Hesabat dövründə dini baxışlara və məzhəblərə mənsubluğa görə ayrıseçkilik halları haqqında məlumatlar alınmışdır. Qeyri-islam dinlərini qəbul edən müsəlmanlara qarşı olan qərəzli fikir və həmin dinləri yayan qruplara, xüsusəndə yevangelik xristian və digər missioner qruplara qarşı düşmənçilik hissləri mövcuddur. Həll edilməmiş Dağlıq Qarabağ münaqişəsi belə bir vəziyyəti daha da gücləndirmişdir.

Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi nəticəsində azərbaycanlılar və ermənilər arasındakı sərtləşmiş düşmənçilik mövcud olaraq qalmaqdadır. Ölkənin etnik erməni separatçıları tərəfindən nəzarət edilən ərazilərini bütün etnik azərbaycanlılar tərk etmiş və oradakı dağıdılmamış məscidlər fəaliyyət göstərməmişdir. Ölkənin hər yerində etnik ermənilərə qarşı mövcud olan düşmənçilik onların bir çoxunu 1988-1990-cı illərdə ölkəni tərk etməyə məcbur etmişdir və əksəriyyəti on ildən də əvvəl baş vermiş etnik iğtişaşlar nəticəsində zərər çəkmiş kilsələr də daxil olmaqla bütün erməni kilsələri bağlı olaraq qalır. Nəticədə qiymətləndirmələrə əsasən ölkədə qalan 10,000-dən 30,000 qədər etnik erməni özlərinin ənənəvi ibadət yerlərinə gedə bilmirlər.

Əvvəlki hesabat dövrlərində olduğu kimi qəzetlər və televiziya "qeyri-ənənəvi" dini qrupları milli özünüdərketmə prosesinə və ölkədə bərqərar olmuş etiqadlar arası harmoniya ənənəsinə zərər yetirən təhlükə kimi təsvir etmişdir.

Hesabat dövründə ölkədə vəhabi və xristian missionerlərinin fəaliyyətini tənqid edən məqalələr qəzetlərdə dərc edilmişdir. Müəyyən dərəcədə siyasi İslamı yaymağa çan atdıqları düşünülən və beləliklə də sülh və sabitliyə təhlükə olduqları qəbul edilən xarici müsəlman missionerlərinin (əsasən iranlılar və vəhabilər) fəaliyyətinə qarşı da mənfi mövqe mövcud olmuşdur. Media vasitələri hökumətin qeyri-qanuni fəaliyyətlə məşğul olduqlarını iddia etdiyi bəzi müsəlman icmalarını hədəfə almışdır.

**Bölüm 4. ABŞ Hökumətinin Siyasəti**

ABŞ hökuməti özünün insan haqqlarının təşviqi üçün apardığı ümumi siyasətinin bir hissəsi kimi ölkə hökuməti ilə dini azadlıqlar məsələlərini də müzakirə edir. Hesabat dövründə ABŞ səfirliyinin məsul işçiləri qeydiyyat prosesi və ümumilikdə qeyri-ənənəvi dini qruplara qarşı mövcud olan münasibət ilə bağlı rəsmi mövqeyi DQDK sədrinə çatdırmış və hökumətin dini azadlığa dair digər vəzifəli şəxslərə və mətbuata bəyan etdiyi fikirlər barədə Səfirliyin narahatçılığını bildirmişdir.

Səfirlik təkrarən dini ədəbiyyyata qarşı mövcud olan senzuraya dair öz etirazını bildirmişdir.

Səfir və Səfirliyin əməkdaşları aparıcı müsəlman, xristian və yəhudi din rəsmiləri ilə sıx əlaqələr saxlayır və dini azadlığın monitorinqini həyata keçirmək məqsədilə mütəmadi olaraq qeyri-ənənəvi dini qrupların üzvləri ilə görüşür. Səfir və Səfirliyin əməkdaşları həm də dini azadlıq məsələləri ilə məşğul olan qeyri-hökumət təşkilatları ilə sıx və yaxın əlaqələr saxlayır.